# PSİXOLOJİ DİLÇİLİK MƏKTƏBİ
## Mayıl B. Əsgərov - 60



Mayıl Əsgərov 17 yanvar 1962-ci ildə Tovuz rayonunun Bozalqanlı kəndində anadan olmuşdur. 1979-cu ildə Y.Sadıqov adına Bozalqanlı kənd orta məktəbini bitirmiş və 1981-1983-cü illərdə ordu sıralarında xidmət etmişdir. Azərbaycan Dövlət Universitetinin filologiya fkültəsinə daxil olmuş, bir müddət burada təhsil aldıqdan sonra şərqşünas-türkoloq ixtisası üzrə Leninqrad (indiki Sankt-Peterburq) Dövlət Universitetinin şərqşünaslıq fakültəsinə daxil olmuşdur. Oranı birirdikdən sonra taleyini Azərbaycan Milli Elmlər Akademiyasının Nəsimi adına Dilçilik İnstitutu ilə bağlamışdır (1990-1994). 1994-cü ildə yenidən ordu quruculuğuna qayıtmış, fəaliyyətini ölkəmizdə yaradılan Azərbaycan Milli Ordusunda davam etdirmişdir. Xidmət müddətində Azərbaycan Respublikası Silahlı Qüvvələrinin (1997), Türkiyə Respublikası Silahlı Qüvvələrinin Sülh Naminə Əməkdaşlıq Şurasının (1999), NATO Birləşmiş Komandanlığının (2000) fəxri fərmanları ilə təltif olunmuşdur.

Lakin Mayıl Əsgərovu elm dünyası özünə daha çox cəlb etməkdə idi. 2005-ci ildə “Adverbial feil formaları ilə zaman formaları arasındakı funksional semantik əlaqələr” mövzusunda dissertasiya müdafiə edərək filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almışdır.

M.Əsgərov bu əsəri ilə türk dillərində işlənən zaman formalarının səciyyəvi xüsusiyyətlərini, özəlliyini üzə çıxarmağa nail olmuşdur. Bu tədqiqatda M. Əsgərov nəzəri və praktik olaraq göstərdi ki, nitq vaxtı zaman formalarını müəyyənləşdirmə meyarı deyil və ola da bilməz. Çünki nitq vaxtı real həyat hadisəsi olmaqla obyektiv gerçəkliyə aiddir, zaman formaları isə dilə məxsusdur, yəni subyektiv gerçəklik fenomenidir.

M.Əsgərovun 2016-cı ildə “Dillərin leksik-qrammatik səviyyədə tədqiqinin linqvo-psixoloji problemləri” mövzusunda müdafiə etdiyi doktorluq dissertasiyası da dilçiliyimizin mühüm uğurlarındandır.

M.Əsgərov bir sıra monoqrafiya, dərs vəsaiti və müxtəlif səpkili kitabların, 70-ə yaxın elmi məqalə və tezisin müəllifidir. Görkəmli alimin rəhbərlik etdiyi “Salam Azərbaycan!” layihəsi əsasında Azərbaycan dilini öyrənmək istəyən əcnəbilər üçün 8 kitabdan ibarət faydalı dərs vəsaiti hazırlanmışdır. Bunlardan 2-si tematik lüğətdir (Mələk Əliyeva və Sevinc İsmayılovanın həmmüəllifliyi ilə).

M.Əsgərovun müntəzəm şəkildə beynəlxalq konfranslarda və simpoziumlarda iştirakı elmimizə baş ucalığı gətirir. O, 70-dən artıq konfrans materialının, elmi mə-

qalənin müəllifidir. Moskva, Leninqrad, Ufa, Elista, Çadır-Lunqa, Ankara, İstanbul, İzmir, Urfa, Niğde, Almatı, Nursultan və dünyanın başqa şəhərlərində keçirilmiş nüfuzlu elmi məclislərdə Azərbaycanı təmsil etmişdir.

M.Əsgərov Amerika, Avropa və Rusiyada yaranan psixolinqvistik məktəb və istiqamətlərin qazandığı uğurlardan yaradıcı şəkildə faydalanmaqla Linqvopsixoloji vəhdət nəzəriyyəsi ilə psixoloji dilçilik sahəsində yeni bir istiqamətin əsası qoyulmuşdur.

M.Əsgərov elmi fəaliyyətlə yanaşı (2013-cü ildən İnstitutun Sosiolinqvistika və Psixolinqvistika şöbəsinin müdiridir), pedaqoji işlə və tərcümə fəaliyyəti ilə də məşğul olmaqdadır, bir sıra fənn proqramlarının müəllifidir. 2006-cı ildən həm də Bakı Avrasiya Universitetində professor kimi çalışır.

Mayıl Binnət oğlu Əsgərov fəal elm adamıdır, natiqdir, müəllimdir, ziyalıdır.

Hörmətli Mayıl Binnət oğlu, 30 ildən çoxdur ki, sizinlə birgə çalışırıq. 60 yaşınız tamam olur. Təbrik edirik, Sizə uzun ömür, ən şirin nemət olan cansağlığı, yeni-yeni yaradıcılıq uğurları diləyirik.

***İsmayıl Məmmədli,***
***filologiya elmləri doktoru, professor***